**UOT 75**

**Emil Ağayev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**AZ1029, Bakı, H.Əliyev pr. 26**
**E-mail**:Emilaghayev93@mail.ru

# ASİF AZƏRELLİ YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

**Xülasə:**Asif Azərelli yaradıcılığında Qarabağ mövzusu mühüm yer tutur. Rəssam Qarabağın təbiətini, tarixi memarlıq abidələrini və faciəsini ustalıqla təsvir etmişdi.Bu məqalədə rəssamın yaradıcılığında mühüm yer tutan əsərlər təhlil edilmişdir.

**Açar sözlər:** Asif Azərelli, Qarabağ, Şuşa ,faciə, rəng , kompozisiya.

Müasir Azərbaycan təsviri incəsənətinin prioritet mövzularından biri də Qarabağ mövzusudır – fırça ustalarımız bu istiqamətdə bir-birindən maraqlı əsərlər yaradıblar. A.Hacıyev, A.İbrahimov, X. Əhmədov, N.Məmmədov və digər rəssamlarımızın yaradıcılığında sözügedən mövzu geniş yer tutur. Qarabağa həsr etdiyi əsərlərdə öz daxili aləmini əks etdirən sənət adamlarımızdan biri də Əməkdar rəssam Asif Azərellidir.
Asif Azərelli yaradıcılığı rəngarəngliyi, milli tarixi-etnoqrafik dəyərlərin ifadəsi ilə seçilir. Qarabağ sevgisi və məkanın əhatəli ifadəsi tablolarında aydın nəzərə çarpır. Qarabağın təbiətini və tarixi abidələrini, eləcə də ötən əsrin sonralarında qarşılaşdığı faciələrini təsvir edən rəssam, bu tablolarında həm də fərdi vətəndaş mövqeyini ortaya qoymuşdur.

"Qarabağlı qoca" (1982) ( Şəkil 1) müəllifi tanıdan ilk əsər kimi onun yaradıcılığında mühüm yer tutur. Onun maraqlı yaranma tarixi vardır... 1982-ci ildə Tbilisi rəssamlıq akademiyasının son kursunda oxuyarkən evə istirahətə gələn gənc tələbə qardaşı ilə Bərdədə "Qılınclı qarpız" sortu yetişdirən zəhmətkeş bir qocanın qonağı olurlar. Gecə qocanın istirahətini eskiz kimi işləyən gənc rəssam, daha sonra motivi bitkin kompozisiya kimi tamamlayır.

Müəllif obraza diqqət yetirərək, əsəri onun qərarlaşdığı məkanı vurğulamaq prinsipi ilə bitirmişdir. Təbiət və insanın vəhdəti üzərində qurulmuş süjetin-dincələn qocanın arxa fonunda kəndin ümumi mənzərəsi canlandırılıb. Ötən əsrin səksəninci illərinin ortalarında - bədii məkanda rəqabətin güclü duyulduğu şəraitdə "Qarabağlı qoca" əsəri nüfuzlu sərgilərdə nümayiş etdirilməklə, peşəkarlar arasında və geniş ictimaiyyətdə müəllifi barəsində müsbət fikirlər formalaşdırdı. Hətta sərgiyə təşrif buyuran Xalq rəssamı Mikayıl Abdullayev əsəri yüksək qiymətləndirərək, Asif Azərellini indiki Mədəniyyət və İncəsənət universitetinə müəllim kimi işləməyə dəvət etmişdi. "Qarabağlı qoca" 1984-85-ci illərdə SSRİ-də keçirilən Ümumittifaq sərgisinə qatılır, ermənilər buna

görə səs-küy yaratmalarına baxmayaraq, münsiflər heyəti kompozisiyanın yüksək dəyərinə görə onun sərgidə nümayişinə icazə verir.



Şəkil 1."Qarabağlı qoca(1982)
(kətan, yağlı boya,200x190 sm)

Sənətkarın yaradıcılığında "Laçın qayası", "Əsgəran qalası", "Şuşa qalası teleqüllə ilə ", " Şuşa qalası" əsərlərində Qarabağın tarixi memarlıq abidələrinin yaddaqalan tərənnümü ilə qarşılaşırıq. "Natəvan bulağı" (2018) (şəkil 2) və "Şuşa" (2018) əsərləri gözlərimiz qarşısında qədim Şuşamızı canlandırır. İmpressionist ruhlu əsərləri sırasında "İsa bulağına gedən yol" " kompozisiyası iki fərqli şəkildə təqdim olunur. Birində təbiətin monumental obrazı, digərində rəssamın və dostlarının İsa bulağında istirahəti təsvir edilmişdir.

"Muğam - beşiyimizdir" əsərində mövzu bütövlükdə Qarabağ təbiəti əlaqəli təqdim olunmuşdur. Buludların arasında Kis dağı, Daşaltı çayı, Topxana meşəsi və Cıdır düzünə sərilmiş Qarabağ xalçası ilə milli musiqi alətlərimiz kamança, tarın təsviri gözoxşayan rəng çalarları ilə verilib. Təbiət və musiqinin vəhdəti olan Cıdır düzünün bədii təqdimatı qürurverici və yaddaqalandır, desək, yanılmarıq.

Asif Azərellinin yaradıcılığında "Keçmişimizdən" silsiləsi mühüm yer tutur. Bu tablolar məcmusuna bir- birindən maraqlı işlər daxildir. "Şuşalı cavanlar "əsərində Şuşada cavanların özlərinə qılınc seçmələri, geyim mədəniyyətinin nümayişi və sair etnoqrafik dəyərlərin soyuq və isti rənglərlə vəhdəti üzvi şəkildə işlənib.

Rəssam 2010-cu ildə yenidən bu süjetə müraciət edərək vətənin keşiyində dayanan əsgərlərin -Qarabağ gənclərinin obrazlarını bir kompozisiyada əhatə edərək, onların vətənpərvərlik hisslərini rənglər vasitəsilə qabardıb. Bu əsər Dövlət Sərhəd Xidmətinin keçirdiyi müsabiqənin qalibi olub. "Keçmişimizdən" silsiləsinə daxil olan "Ziyarətdən qayıdanlar", "Ov", "Sevgililər" əsərlərində rəssam miniatür ənənələrimizdən geniş şəkildə bəhrələnibdiyini nümayiş etdirə bilmişdir.

Maraqlı və nostalji hisslər doğuran kompozisiyalardan biri də "Zəngilan toyu"dur (2014). Tabloda Avropada birinci, dünyada ikinci yerdə duran məşhur Zəngilan meşələri payız fəslini yaşayır. Dağ kəndindəki toyun təsvirində iki ağac simvol kimi üzük formasında qarşı-qarşıya verilib. Bu da kompozisiyanın obrazlı həllinə dəlalət edir.



**Şəkil 2**."Natəvan bulağı.2018.
(kətan, yağlı boya,90x70 sm)

Asif Azərelli yaradıcılığında Qarabağ faciəsi də mühüm yer tutur. Leyla Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun keçirdiyi Xocalıya həsr edilən birinci Respublika müsabiqənin qalibi olmuş "Belə də haqsızlıq olar?" əsəri öz kompozisiya xüsusiyyətləri ilə tamaşaçının diqqətini çəkir. Düşmənin ayaqları altında maddi və mənəvi dəyərlərimiz, Xocalı kurqanından tapılmış saxsı qabların qırıntıları, ananın öz körpəsi ilə öldürülməsi, haqlı sualları hələ də cavablandıra bilməyən dünya ölkələrinə təqdim olunan sübutlar, işğal faktlarıdır...

Rəssamın digər işi – “İgid erməni əsgəri” ironik yozumu seçilir: Burada düşmən bostanda müqəvva obrazında təqdim olunub. Məcazi və simvolik bir şəkildə şərh olunan motivdə, bədnam “dənizdən-dənizə ideyası” ilə yaşayan işğalçının başında 366 rəqəmi yazılmış vedrə var, ətrafdakı dirəklər isə düşməni dəstəkləyən dövlətlərdir. Arxa fonda isə xarabaya qalmış Qarabağ görünür...

“Xocalı faciəsi” kompozisiyasında bir Xocalı sakininin evində divardan məşhur rəssam A.Plastovun “Faşist keçdi”nin reproduksiyası asılıb. Rus-sovet rəssamının bu əsərində baş verən hadisələr Xocalıda törədilənlərlə eynidir. Uşaqların ölümü hər iki əsərdə kompozisiyanın dominantı kimi seçilmişdir. Əsərdə Simvolik olaraq təqvimin “26 fevral” tarixinin göstərilməsi, üzərində Pikassonun məşhur göyərçininin təsviri qarşıya belə bir zəruri sualı çıxarır: dünyada sülhdən danışan ölkələr haradadırlar?..




**Şəkil 3.”**Heydər ƏliyevinQarabağ harayı”(Kətan, yağlı boya, 180x190 sm)

“Dərdi çəkən rəssam” əsərində isə müəllif molbert qarşısında özünü təsvir edərək, ruhuna hopmuş qəmi, kədəri kətan üzərinə köçürmüşdür. Burada düşmən tapdağında qalmış Qarabağa görə milyonların ürəyində qövr edən nisgil fırçanın gücü ilə xeyli təsirli tutumda ifadə olunmuşdur..

Ümummilli liderimizin Qarabağ hadisələrinə bütün dünyanın diqqətini çəkməsi “Heydər Əliyevin Qarabağ harayı” ( Şəkil 3) adlı əsərin yaranması ilə nəticələnib. Kompozisiyanın mərkəzi obrazı kimi təsvirlənən Ulu öndər Xocalıda baş vermiş soyqırım hadisəsini, bir milyondan artıq qaçqının vətənsizlik dərdini bütün dünyaya çatdırmağa çalışır...

**Nəticə**. Asif Azərelli yaradıcılığında Qarabağ mövzusunun ifadəsini aşağıdakı kimi nəticələndirmək olar:
1.Asif Azərelli yaradıcılığından Qarabağ mövzusu qırmızı xətt kimi keçir
2. Asif Azərelli Qarabağın tarixini, memarlığını və ən əsası faciəsini öz əsərlərində bədii-obrazlı tutumda təsvir etmişdir
3. Müasir Azərbaycan təsviri incəsənətimizdə bu gün də bu mövzu geniş işlənilməlidir.
Azif Azərelli istedadı, vətənpərvərliyi, mənəvi dəyərlərə sadiqliyi, təxəllüsü ilə üzərinə götürdüyü öhdəlikləri, məsuliyyəti layiqincə yerinə yetirir, təəssübkeşlik ruhunu yaratdığı əsərlərdə canlandıraraq gələcək nəsillərə ötürür məkdədir.

## Ədəbiyyat:

1. Azərelli haqqında kataloq. Bakı: 2007
2. Əliyev Z. Qarabağ müharibəsi təsviri sənətdə”// “Qobustan” jurnalı. Bakı: 2013, №1, s.11-15
3. ƏliyevZ. və Xəlilov A.Azərbaycan incəsənəti (Ensiklopedik məlumat kitabı). Bakı: 2011

**Эмиль Агаев**

**Тема Карабаха в творчестве Азерелли**

**Резюме**

Карабахская тема занимает важное место в творчестве Асифа Азелли. Художник умело описал природу, исторические архитектурные памятники и трагедию Карабаха. В данной статье анализируются произведения, которые играют важную роль в творчестве художника.

**Ключевые слова:** Асиф Азерелли, Карабах, Шуша, трагедия, цвет, композиция, тема Карабаха в творчестве Асифа Азерелли.

**Emil Agayev**

**Garabagh theme in Asif Azelly's creativity**

**Summary**

Garabagh theme occupies an important place in Asif Azelly's creativity. The artist has skillfully described the nature, historical architectural monuments and tragedy of Garabagh.This article analyzes the works that play an important role in the artist's creativity.

**Key words:** Asif Azerelli , Garabagh, Shusha,tragedy, color, composition Karabakh in the works of Asif Azerelli

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.06.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.07.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**